1 - 2_Layout 1 27.11.2020 10:44 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 22 (588)

30 noyabr 2020-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# İlham Əliyev Ermənistanı cəzalandıraraq işğala son qoydu

**"Azərbaycan" qəzetinin müxbiri Rəşad Cəfərlinin müəllifi olduğu "İlham Əliyev Ermənistanı cəzalandıraraq işğala son qoydu" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

### Məğlub edilmiş düşmən Azərbaycanın şərtlərini yerinə yetirməyə məhkumdur

Ərazi bütövlüyünün bərpası məsələsi torpaqları işğala məruz qalmış dövlətlər üçün tarix boyu ən müqəddəs vəzifələrdən biri olub. Bu vəzifənin yerinə yetirilməsi dövləti qaliblər sırasına çıxarıb, onun xalqını daha məğrur edib. Belə bir qürur doğuran taleyi indi Azərbaycan yaşayır. Ermənistanın işğalına son qoyaraq ərazi bütövlüyünü təmin edən xalqımız son 200 illik tarixinin ən şərəfli səhifələrini yazır.

### İşğalçı kapitulyasiya aktına imza atmağa məcbur edildi

44 gün davam edən Vətən müharibəsi Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yenilməz iradəsi və ordumuzun qəhrəmanlığı sayəsində Qələbə ilə başa çatdı. Noyabrın 10-da imzalanan üçtərəfli bəyanatla işğalçı Ermənistan kapitulyasiyaya, təslim olmağa məcbur edildi, ölkəmizin ərazi bütövlüyü tam təmin olundu. Azərbaycan müharibənin əvvəlcədən sülhə məcburetmə əməliyyatı olduğunu, qan tökmək və torpaq qəsb etmək məqsədi güdmədiyini bildirirdi. Məğlubiyyət bəyanatının Ermənistan tərəfindən imzalanması isə sülhə məcburetmə əməliyyatının uğurla bitməsinin təsdiqi oldu. "Mən münaqişənin və İkinci Qarabağ müharibəsinin əvvəlində demişdim, bu gün də bunu böyük qürur hissi ilə bir daha deyirəm ki, məsələnin hərbi-siyasi həll yolları var idi və Azərbaycan bunu döyüş meydanında sübut edib. Biz düşməni məcbur etdik ki, kapitulyasiya aktına imza atsın və beləliklə, bizim bugünə qədər işğal altında qalan Ağdam, Laçın və Kəlbəcər rayonları da yaxın günlərdə Azərbaycana qayıdır", - deyə Prezident İlham Əliyev Füzuli rayonuna səfəri zamanı bununla bağlı bildirib.




Qeyd edək ki, Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin bəyanatı ordumuzun zəfər yürüşü nəticəsində yaranmış reallığa tam uyğundur və Ermənistanın kapitulyasiyasının rəsmi-hüquqi təsdiqidir. Beləliklə, Azərbaycan xalqı 30 ildən bəri gözlədiyi böyük Qələbənin sevincini yaşayır. İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusunun 30 illik işğala son qoyaraq torpaqlarımızı azad etməsi dövlətçilik tariximizi qürurlandırdı, hər birimizə intizarında olduğumuz qələbənin sevincini yaşatdı. Eyni zamanda, haqq davamızın nəticəsi olan bu qələbə xalqımızı daha da bütövləşdirdi, daha da mübariz etdi, milli həmrəyliyimizi gücləndirdi. 44 günlük müqəddəs savaş dövlətimizin və xalqımızın iftixar ünvanına çevrildi. Bu gün böyükdən kiçiyə qədər hər kəs, vəzifəsindən, əqidəsindən, sosial statusundan asılı olmayaraq, hər bir azərbaycanlı özünü daha vüqarlı, daha mətin hiss edir. Çünki artıq biz qalib bir xalqın nümayəndələri olmağımızla, torpaqlarımızı hünər meydanında azad etməyimizlə fəxr edirik, öyünürük, qürurlanırıq.

### Güclü Azərbaycanın qarşısında Ermənistan heç vaxt duruş gətirə bilməz

Bu qələbə istər Azərbaycan, istər Ermənistanla bağlı həqiqətlərə yeni işıq saldı. Azərbaycanla bağlı həqiqət ilk növbədə ölkəmizin hərbi qüdrəti ilə bağlıdır. 44 gündə Azərbaycan Ordusu özünün möhtəşəm qələbələri ilə dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı. Silahlı Qüvvələrimizin kompleks inkişafı və modernləşdirilməsi ilə bağlı son 17 ildə İlham Əliyevin xüsusi diqqəti altında həyata keçirilən hərbi siyasətin səmərəliliyi döyüş meydanında təcəssümünü tapdı. Hərbi əməliyyatların aparıldığı 44 günlük müddət göstərir ki, Azərbaycan Ordusu mümkün olmayanı etməyə qadirdir.

Düşmənin uzun illər ərzində qurduğu, keçilməz hesab edilən müdafiə xətləri ilk andan yarıldı. Ümumiyyətlə, Azərbaycan Ordusu bu savaşda müasir döyüşlərin aparılmasının nümunəsini yaratdı.

Ermənistana gəldikdə, İkinci Qarabağ müharibəsi ilk gündən göstərdi ki, bu işğalçı dövlət Azərbaycanla hərb meydanında mübarizə aparmağa qadir deyil. Bu savaş təsdiqlədi ki, işğal siyasətinin qurbanı olan Ermənistan 30 il əvvəl necə idisə, elə də qalıb və inkişaf baxımından bir addım belə addımlaya bilməyib. Bütün dünya gördü ki, Ermənistanın məğlubedilməz ordusunun olması barədə deyilənlər tamamilə əfsanə imiş. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Ermənistanın məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi ilk gündən dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi.

44 gündə Ermənistanın baş naziri N.Paşinyan xilas olmaq üçün hər gün ayrı-ayrı dövlət başçılarına yalvarmaqla məşğul oldu. Ermənistanın ardıcıl təxribatlarını dayandırmaq üçün Azərbaycanın həyata keçirdiyi əks-hücum həmlələrindən narahat olan Fransa ciddi-cəhdlərlə bu prosesi dayandırmağa çalışdı. Prezident Makronun Rusiya, ABŞ rəhbərliyi ilə təmaslarının, ardıcıl olaraq Azərbaycan Prezidentinə zənglər etməsinin məqsədi də Ermənistanı tam iflasdan qurtarmaq idi. Lakin heç nə Azərbaycanı öz yolundan döndərə bilmədi və ordumuz Qarabağın incisi Şuşaya qədər gedib işğalda olan torpaqlarımızı azad edərək öz vəzifəsini yerinə yetirdi. Həmin günlərdə Prezident İlham Əliyev bütün siyasi təzyiqlərin qarşısını aldı, dünya erməniliyinin ölkəmizə qarşı diplomatik cəbhə yaratmasına imkan vermədi.

İndi Ermənistanın daxilindəki hazırkı biabırçı mənzərə və gərgin vəziyyət, Paşinyana qarşı artan etirazlar, bununla müqayisədə Azərbaycan xalqının əhvali-ruhiyyəsi, bayram sevinci kimin qalib, kimin isə məğlub olduğunu aydın şəkildə nümayiş etdirir. Bu baxımdan Prezident İlham Əliyev bu qələbə ilə kimin kim olduğunu bütün dünyaya göstərdi. İlham Əliyev sübut etdi ki, güclü Azərbaycanın qarşısında Ermənistan heç vaxt duruş gətirə bilməz. Eyni zamanda, heç bir qüvvə Azərbaycanın iradəsinə təsir göstərə bilməz.

### Bu qələbə ilə yeni reallıq yarandı

Azərbaycanın işğal olunmuş ərazilərini güc yolu ilə azad etməsi Dağlıq Qarabağ problemi ətrafında da tamamilə yeni reallıq formalaşdırıb. Münaqişənin müxtəlif həlli variantlarının və onların prinsiplərinin müzakirəsi artıq arxada qalıb. Danışıqlar prosesində Ermənistanın yerinə yetirməli olduğu şərtlər vardı. Lakin ATƏT-in Minsk Qrupu onlara əməl etməyi işğalçıdan tələb etmirdi. 44 gün davam edən müharibənin nəticəsi olaraq Azərbaycan güc yolu ilə həmin şərtləri təmin etdi. Danışıqlar prosesində Azərbaycan Şuşaya yaxın buraxılmırdı. Lakin rəşadətli ordumuz qədim yurd yerimiz, mənəvi paytaxtımız Şuşanı azad etməklə Ermənistanın işğalçı siyasətini, sərsəm tələblərini darmadağın etdi.

Yeni reallıq ondan ibarətdir ki, Azərbaycan ərazi bütövlüyünü təmin etdi və Ermənistanın Dağlıq Qarabağın statusu ilə bağlı bütün planlarının üstündən xətt çəkildi. Bütün dünya gördü ki, separatçı rejimlərə və işğal siyasətinə necə son qoyulur və beləliklə, 30 ildir danışıqlar prosesində Ermənistan nail olmaq istədiklərinin heç birini əldə edə bilmədi. Məlum olduğu kimi, danışıqlar prosesinin müxtəlif mərhələlərində müzakirə olunan razılaşma variantları var idi. Lakin indi hansısa razılaşmadan söhbət belə gedə bilməz və bütün şərtləri Azərbaycan diktə edir. Bir mühüm məsələni də qeyd edək ki, xalqımızın bu qələbəsi ilə həm də Naxçıvan blokadadan azad olunur. Belə ki, ilk dəfə olaraq Azərbaycanın əsas hissəsinin Ermənistan ərazisindən qısa yolla Naxçıvanla əlaqəsi yaradılacaq ki, bu da respublikamızın Qələbə nəticəsində düşməni məcbur etməsinin mühüm nəticəsidir.

Artıq Ermənistanın Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratlarını təyinetmə ilə əlaqədar bütün iddiaları qüvvədən düşüb. Dağlıq Qarabağla bağlı bütün tənzimlənmələr yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü prinsipləri çərçivəsində həll ediləcək. İndi bütün şərtləri İlham Əliyev diktə edir. Məğlub Ermənistan isə bu şərtləri yerinə yetirməyə məhkumdur.

# Kəlbəcər bizimdir! Qarabağ Azərbaycandır!





***Əziz həmvətənlər, Kəlbəcər rayonu işğaldan azad olundu. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.***

***Əziz kəlbəcərlilər, gözünüz aydın olsun! Doğma rayonunuz işğaldan azad olundu. Bu günü Azərbaycan xalqı uzun illər ərzində səbirsizliklə gözləyirdi. Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də işğal edilmişdir. Günahsız insanlar öz dədə-baba torpağından vəhşicəsinə qovulmuşdur. Kəlbəcərin tarixi abidələrinə, təbiətinə böyük ziyan vurulmuşdur.***

*Kəlbəcər bizim qədim torpağımızdır. Qədim Azərbaycan torpağıdır. Kəlbəcər ərazi baxımından bizim ən böyük rayonlarımızdan biridir. Kəlbəcərin tarixi abidələri bizim böyük sərvətimizdir. Həm məscidlər, həm kilsələr bizim tarixi sərvətimizdir. Azərbaycan xalqı onu yaxşı bilir və bütün dünya bilməlidir ki, Kəlbəcərdə mövcud olan kilsələr qədim Qafqaz Albaniyası dövlətinə məxsusdur.*

***Kəlbəcər rayonu füsunkar təbiətə, zəngin mədəni irsə malikdir.***

*Biz Kəlbəcəri bərpa edəcəyik, heç kimin şübhəsi olmasın və həyat qayıdacaq. Kəlbəcərdə kənd təsərrüfatı inkişaf edəcək, xüsusilə heyvandarlıq. Bizim orada böyük otlaq sahələrimiz var. Kəlbəcərin zəngin təbii qaynaqları, təbii ehtiyatları var. Sovet vaxtında bütün sovet məkanında məşhur olan İstisu suyu Kəlbəcərdə istehsal olunurdu. İndi İstisu da bizim nəzarətimizə qayıdır. Vaxtilə ora böyük kurort zonası idi. Mənfur düşmən hər tərəfi dağıdıb. İndi o görüntülər var, hər kəs görə bilər. Hamısını bərpa edəcəyik, Kəlbəcəri yenidən quracağıq, kəndləri, Kəlbəcər şəhərini.*

***Müharibə bir daha göstərdi kim kimdir. Ermənistan məğlub edilmiş ölkədir. Azərbaycan zəfər çalmış ölkədir. Kəlbəcər bizimdir! Qarabağ Azərbaycandır!***

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**





2_Layout 1 27.11.2020 10:46 Page 1



# AZƏRBAYCANIN BÖYÜK HƏRBİ-SİYASİ UĞURU XALQIMIZI YENİ İNKİŞAF ZİRVƏSİNƏ UCALDACAQ

## Silahlı Qüvvələrimiz Vətən müharibəsində çətin sınaqlardan keçərək qalib oldu

2020-ci ilin 27 sentyabr - 9 noyabr tarixləri Azərbaycan Respublikasının dövlətçilik və hərb tarixində şərəfli və qürurverici səhifə olaraq layiqli yer tutacaqdır. Qeyd olunan 44 gün ərzində müzəffər Silahlı Qüvvələrimiz erməni təcavüzkarlarına qarşı uğurla döyüşərək, uzun illər düşmən tapdağında qalan Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarını, Xocavənd, Laçın rayonlarının bir hissəsini, Ağdərə şəhəri ətrafındakı Talış, Suqovuşan kəndlərini, Xocalı rayonunun bir sıra kəndlərini, Şuşa şəhərini və strateji əhəmiyyətli bəzi yüksəklikləri işğaldan azad etdi. Döyüş meydanında və diplomatik müstəvidə məğlub olan Ermənistan müharibəni dayandırmaq üçün Azərbaycanın şərtlərini qəbul etmək məcburiyyətində qaldı. Beləliklə, Azərbaycan, Rusiya və Ermənistanın rəhbərləri tərəfindən noyabrın 9-da birgə bəyanat imzalandı. Həmin bəyanata uyğun olaraq, 10 noyabr 2020-ci il tarixindən etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların dayandırılması elan olundu. 9 bənddən ibarət bəyanata əsasən, Ermənistanın üzərinə respublikamızın Kəlbəcər, Ağdam və Laçın rayonlarından öz hərbi qüvvələrini çıxarmaq, bu əraziləri boşaltmaq öhdəliyi qoyuldu. Artıq noyabrın 20-də Ağdam, noyabrın 25-də isə Kəlbəcər rayonlarında üçrəngli bayrağımız qaldırılıb. Bundan əlavə, məcburi köçkünlərimiz Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında Dağlıq Qarabağın ərazisindəki əvvəlki yaşayış yerlərinə də geri qayıdacaqlar. Həmçinin, Azərbaycanın Naxçıvan Muxtar Respublikasına Ermənistan ərazisi üzərindən nəqliyyat dəhlizi açılacaqdır.



Hərbi əsirlərin, girovların və cəsədlərin mübadiləsinin həyata keçirilməsi də bəyanatda öz əksini tapıb.

İmzalanan sənəddə əsas məqamlardan biri Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 hərbi qulluqçusu, 90 hərbi zirehli texnikası, 380 ədəd avtomobil və xüsusi texnikasından ibarət sülhməramlı kontingentinin yerləşdirilməsi barədədir. Bu münaqişənin tarixində ilk dəfə olaraq təmas xəttində sülhməramlıların yerləşdirilməsi qərara alınıb və onlar artıq dislokasiya yerlərində fəaliyyət göstərirlər.



Üç tərəfin razılaşdırdığı məsələlər arasında atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəzin yaradılması da var. Sülhməramlı kontingentin yerləşdirilməsi ilə yanaşı, atəşkəsə nəzarət etmək üçün sülhməramlı mərkəzin yaradılması da münaqişənin nizamlanması prosesində tətbiq olunan yeni mexanizmdir. Göstərilən mərkəzin işində qardaş Türkiyə Cümhuriyyətinin hərbi heyətinin iştirakının reallaşması ölkəmizin milli mənafeyinə uyğundur və bölgədə möhkəm sülhün bərqərar olunması baxımından da vacib addımdır.

Birgə bəyanatın mətnində Dağlıq Qarabağda ermənilərin yaşadıqları ərazilərə hər hansı bir statusun verilməsi müddəası yoxdur. O cümlədən, bu statusa dair tərəflər arasında danışıqların aparılması barədə heç bir bənd də bəyanata salınmayıb. Sözsüz ki, bu faktor ölkəmizin ciddi diplomatik uğurudur.

Azərbaycan ön cəbhədə qazandığı hərbi zəfərlə uzun illər dəyişməz qalan, bünövrəsini işğal, etnik təmizləmə, radikal separatizm təşkil edən status-kvonu köklü şəkildə dəyişməyə müvəffəq oldu. Xalqımızın vətənpərvər, fədakar, igid oğullarının canı və qanı bahasına doğma torpaqlarımızda düşmənin darmadağın edilməsi münaqişənin çözümündə yeni bir gerçəklik yaratdı, respublika rəhbərliyi tərəfindən irəli sürülən nizamlanmanın hərbi-siyasi yolunun vəhdəti tezisinin özünü doğrultduğunu isbatladı.

Şahidi olduğumuz Vətən müharibəsi Azərbaycanın Cənubi Qafqaz regionunda ən güclü ordu yaratdığını nümayiş etdirdi. Ermənistanın öz ordusu barədə illərlə təbliğatını apardığı miflər hərbi əməliyyatların ilk günlərindən alt-üst oldu. Onlar özləri etiraf edirlər ki, döyüşlər zamanı minlərlə fərari axını ilə üzləşiblər, erməni hərbçiləri çoxlu sayda texnikanı, silah-sursatı, hərbi əmlakı atıb canlarını qurtarmaq üçün qaçıblar. Hətta ayrı-ayrı yaşayış məntəqələrində düşmənin hərbi bölmələri mülki şəxsləri taleyin ümidinə buraxaraq, onları təxliyə etməyiblər.

İşğalçı tərəf 1990-cı illərdən yaratdığı və davamlı şəkildə möhkəmləndirdiyi müdafiə xəttini əlində saxlaya bilmədi. Bu müdafiə xəttinin ayrı-ayrı cinahlarda yarılması düşmən ordusunun idarəetmə sistemini kəskin təsirli dərəcədə pozdu.

Rəşadətli Silahlı Qüvvələrimizin ayrı-ayrı qoşun növlərinə aid xüsusi təyinatlılar 44 günlük müharibədə peşəkarlıq, taktiki məharət, müasir döyüşaparma qabiliyyəti, texnika və aviasiya, PUA (pilotsuz uçuş aparatı), artilleriya dəstəyi olmadan da, mobil qruplarla düşmənin gücləndirilmiş mövqelərinə həmlə etmək bacarığı, dözümlülük və sarsılmaz iradə göstəriblər. Onların bu keyfiyyətləri mürəkkəb relyefə malik, gücləndirilmiş istehkamların qurulduğu ərazilərdə, eləcə də əlverişsiz hava şəraitinə, döyüş təchizatının çatdırılmasının çətinliklərinə baxmayaraq, keçirilən hücum əməliyyatlarında özünü daha qabarıq büruzə verib.

Müzəffər Silahlı Qüvvələrimizin Murovdağ yüksəkliyi, Suqovuşan məntəqəsi, Füzuli-Cəbrayıl rayonları, Hadrut qəsəbəsi, Şuşa şəhəri və onun ətrafında, habelə digər həlledici istiqamətlərdə apardığı uğurlu döyüşlər barədə məlumatlar şücaət nümunəsi kimi və analoqu olmayan bəzi taktiki parametrlərə görə müasir hərbi dərsliklərə salınacaq, müharibələr mövzusunda tədqiqatlarda qeyd ediləcək.

44 gün davam edən bu müharibədə ordumuz həm havada, həm də yerdə hərbi güc üstünlüyünə malik olmaqla, düşməni canlı qüvvə sarıdan xeyli təlefata uğradıb, onun havadan müdafiə sistemlərini, aviasiya vasitələrini, artilleriyasını, çoxlu sayda zirehli texnikasını və şəxsi heyət, silah-sursat daşıyan avtomobilini sıradan çıxarıb, təchizat anbarlarını, komanda-idarəetmə məntəqələrini, rabitə qovşaqlarını dağıdıb. İşğalçılar öz atəş nöqtələrini, dayaq məntəqələrini, texnikalarının sığınacaqlarını atəş zərbələrindən gizlətmək üçün maskalayıcı tədbirləri ya keyfiyyətsiz görmüş, ya da yeni texnologiyalar amilini nəzərə almamışlar. Yeni hərbi texnologiya növünə aid olan dronlar vasitəsilə ordumuz erməni hissə və bölmələrinin silah arsenalına və texnika parkına dəqiq zərbələrlə bərpa olunmayan zərər vurub. Bununla yanaşı, yeni texnologiyalardan istifadə edilməklə erməni işğalçı qüvvələrinin komandanlığına daxil olan yüksək rütbəli və vəzifəli şəxslərin hərəkət marşrutu nəzarətdə saxlanılıb, onlar dəqiq atəşlə zərərsizləşdiriliblər.

Hərbi əməliyyatlar zamanı Silahlı Qüvvələrimizin nəzarətinə keçən, əvvəl ermənilərin məskunlaşdıqları şəhər, qəsəbə və kəndlərdə hissə və bölmələrimiz tərəfindən heç bir ciddi dağıntıya yol verilməyib. Bu fakt ordumuzun peşəkarlığının, o cümlədən, müharibəaparma qaydalarına əməl etdiyinin göstəricisidir. Təcavüzkar tərəf isə şəhər, qəsəbə və kəndlərimizi məqsədyönlü şəkildə hədəfə alaraq dəhşətli dağıntılar törədib, mülki vətəndaşları məhv edib.

Ermənistanın öz vəzifələrindən istefa verən bəzi hərbi yetkililəri bu günlərdə yerli mətbuata açıqlamalarında erməni ordusunun baş qərargahında bizim hərbi qüvvələri çaşdırmaq, yanlış istiqamətləndirmək, dezinformasiya yaymaq üçün xüsusi mərkəzin fəaliyyət göstərdiyini bildiriblər. Sözügedən yetkililər etiraf ediblər ki, müharibə günlərində bu mərkəz öz təyinatı üzrə səmərəli işləməyib, məqsədlərinə nail olmayıb.

İşğalçı ölkənin müharibə günlərində informasiya siyasəti də çat verib, beynəlxalq ictimaiyyətə dezinformasiya ötürmək cəhdləri ifşa olunub, onun törətdiyi hərbi cinayətlər, beynəlxalq humanitar hüququ kobud şəkildə pozması faktları xarici ölkələrin kütləvi informasiya vasitələrində geniş işıqlandırılıb.

İstilaçı dövlətin siyasi və hərbi rəhbərliyi öz əhalisinə də müharibədəki reallıq barədə yalan məlumatlar çatdırıb. Gerçəklər ortaya çıxanda isə erməni ictimaiyyəti əsl şok yaşayıb.



Ermənistanın prezidenti Armen Sarkisyan yerli mətbuata müsahibəsində ölkəsinin bu müharibədə Azərbaycana bir çox parametr üzrə məğlub olduğunu söyləyib. O deyib ki, öz ordularını regionda ən güclü hesab edirdilər, ancaq cəmiyyətin bu arxayınçılığı son müharibə vaxtı dərin məyusluqla əvəzlənib. Diplomatik müstəvidə də Azərbaycanın daha kəsərli addımlar atdığını erməni dövlət başçısı etiraf edib. Ölkəmizin iqtisadi və demoqrafik resurslarının əhəmiyyətli dərəcədə inkişaf etdiyini, onların isə bu istiqamətlərdə çox gerilədiklərini, böhranlı vəziyyətə düşdüklərini də vurğulayıb.

Azərbaycanın işğaldan azad edilən ərazilərinin vəziyyəti olduqca acınacaqlıdır. Bu bölgələrdə bütün infrastruktur dağıdılıb, ictimai və fərdi əmlaklar talan edilərək daşınıb, yaşayış məntəqələri viran qoyulub, mədəniyyət abidələri, dini məbədlər, qəbiristanlıqlar vandalizmə məruz qalıb. Dövlətimiz bu cinayət faktları ilə bağlı araşdırmalar başa çatdıqdan sonra beynəlxalq məhkəməyə müraciət edəcək, Ermənistandan təzminat tələb olunacaq.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva işğaldan azad olunan Füzuli, Cəbrayıl və Ağdam rayonlarına səfər ediblər. Dövlət başçısı həmin səfər zamanı bildirdi ki, düşmən işğal etdiyi ərazilərimizi xarabalığa çevirməklə azərbaycanlıların bir daha bu yurdlara dönməyəcəklərini düşünürdü. Ancaq xalqımız öz doğma torpağına həmişə mənəvi cəhətdən bağlı olub, bu yurdlara qayıdacağı ümidi ilə yaşayıb. Respublika Prezidenti qeyd edib ki, işğaldan azad edilən ərazilərimiz dirçəldiləcək, orada yeni həyat başlayacaq.

Qədirbilən xalqımız ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasında, məcburi köçkün soydaşlarımızın didərginlik həyatının sona çatmasında, bizim tərəfimizdə olan haqq-ədalətin bərqərar edilməsində Respublika Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin tarixi xidmətini heç vaxt unutmayacaq. Qalib Silahlı Qüvvələrimizin bu müharibədə keçdiyi zəfər yolu müasir hərb salnaməmizin qəhrəmanlıq nümunəsi kimi bugünkü və gələcək nəsillər tərəfindən daim yüksək qiymətləndiriləcək.

Tarixdə qaliblər ləyaqətli iz qoyur və qaliblər yeni tarix yazır!

**Yalçın Abbasov**

# Ağdam bizimdir! Qarabağ Azərbaycandır!





***Mən sizi Ağdam rayonunun işğaldan azad olunması münasibətilə ürəkdən təbrik edirəm. Bütün ağdamlıları ürəkdən təbrik edirəm. Əziz ağdamlılar, siz artıq köçkün deyilsiniz. Siz doğma dədə-baba torpağınıza qayıdacaqsınız.***

*Ağdam rayonunun işğaldan azad olunması tarixi hadisədir. Deyə bilərəm ki, işğal edilmiş rayonların arasında əhalinin sayına görə Ağdam ən böyük rayondur. İşğaldan əvvəl Ağdam rayonunda 143 min insan yaşayırdı. Hazırda Ağdam rayon sakinlərinin sayı 204 mindir.*

***Ağdamın işğaldan azad edilməsi şanlı hərbi Qələbə nəticəsində mümkün olmuşdur. Əgər Azərbaycan Ermənistanı döyüş meydanında məğlub etməsəydi, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmayacaqdı.***

*Ağdamlılar Birinci Qarabağ müharibəsində qəhrəmancasına vuruşmuşlar, çoxlu şəhidlər vermişlər. İkinci Qarabağ müharibəsində - Vətən müharibəsində də cəsarətlə vuruşmuşlar, şəhidlər vermişlər. Mən fürsətdən istifadə edərək bu Qələbəni bizə bəxş edən bütün şəhidlərimizi yad etmək istəyirəm, Allah onlara rəhmət eləsin, Allah onların yaxınlarına səbir versin.*

***Mən bu gün Ağdamın azad olunması xəbərini xalqıma böyük qürur hissi ilə çatdırıram, bu müjdəni verirəm. Bu gün bizim yaşadığımız günlər, yaşadığımız anlar, əminəm ki, hər bir azərbaycanlının yaddaşında əbədi qalacaq. Biz tarix yazırıq, yeni tarix. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir.***

*Əziz xalqım, əziz ağdamlılar, sizi bu gözəl tarixi hadisə münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Ağdam bizimdir! Qarabağ Azərbaycandır!*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**





3_Layout 1 27.11.2020 11:13 Page 1



# DAVAMLI RABİTƏ DÖYÜŞ UĞURUNUN ƏSAS AMİLLƏRİNDƏN BİRİDİR

Qarşıda duran tapşırıqların icrası ilə əlaqədar keçirilən xüsusi əməliyyatlarda peşəkar rabitəçilərimizin müstəsna xidmətləri var. Rabitənin üstünlüklərindən danışılarkən bildirilir ki, rabitə olmadan döyüşü aparmaq mümkünsüzdür. Rabitəsiz hər hansı bir əməliyyat idarə oluna bilməz. Qeyd etmək lazımdır ki, bu sahədə əsas şərt davamlı və dayanıqlı rabitə əlaqəsinin yaradılmasıdır.

Ən müasir rabitə qurğuları ilə təchiz edilən Daxili Qoşunların Dayaq rabitə qovşağı daim döyüşə hazır vəziyyətdədir. Dayaq rabitə qovşağının rəisi mayor Abbasəli Mehdiyevdən öyrəndik ki, şəxsi heyətlə gündəlik olaraq təşkil edilən məşğələlərin keçirilməsində əsas məqsəd rabitəçilərin bilik və bacarıqlarının, peşə vərdişlərinin daim artırılmasıdır. Hər gün ixtisas üzrə yeni mövzular ətrafında hazırlıqlarını artıran rabitəçilərimiz müasir qurğulardan istifadə qaydalarını praktiki mənimsəyirlər.

“Xüsusi əməliyyatlarda daha çox hansı rabitə vasitələrindən istifadə olunur” sualını cavablandıran mayor A.Mehdiyev bildirdi ki, təcrübə naqilli və radiorabitədən çox istifadə edildiyini göstərir: “Ona görə ki, naqilli rabitə etibarlıdır və dayanıqlılığı qoruyur. Ümumiyyətlə, həm naqilli, həm də radiorabitə vasitələrinin işinin saz və dayanıqlı saxlanılması əsas götürülür. Davamlı rabitə döyüş hazırlığında vacib şərtdir. Peşəkar rabitəçi ərazinin relyefini hərtərəfli öyrənməlidir. Dağlıq, təpəlik, sıldırım qayalıqlarda rabitə sisteminin uyğun qaydalar üzrə yerləşdirilməsi onun etibarlılığını daha da gücləndirir.

Rabitənin yerləşdirilməsi, bir qayda olaraq, əraziyə görə seçilir. Soyuq, qarlı-yağışlı, dumanlı havada ərazini tanımadıqda, kəsilmiş



rabitə xəttinin bərpası çətinləşir. Bu səbəbdən də müasir rabitə vasitələrinin sirlərini mükəmməl öyrənmək vacibdir. Rabitə sahəsində ildən-ilə yeniliklər var. Müasir dünyamızı rabitəsiz təsəvvür etmək olmaz. Bu gün qazandığımız qələbədə rabitəçilərin də payının olması bütün şəxsi heyəti ürəkdən sevindirir”.



İlk günlərdən etibarən döyüş bölgəsində, bölmələr arasında qarşılıqlı radioəlaqəni təmin etmək üçün Dayaq rabitə qovşağı tərəfindən müvafiq tədbirlər görüldüyünü diqqətə çatdıran mayor A.Mehdiyev qeyd etdi ki, bütün növ radiorabitə əlaqələri fasiləsiz təmin olunub, rabitə vasitələrinə yeni çağırışlar yazılaraq, döyüş meydanında olan şəxsi heyətə çatdırılıb. Rabitə əlaqəsinin yüksəldilməsi yönündə və qarşılıqlı əlaqənin fasiləsiz təmini üçün Dayaq rabitə qovşağının şəxsi heyətindən gizirlər Rəşad Əsgərov, Elvin Əfəndiyev, baş çavuş Davud Bayramlı 16077 saylı hərbi hissəyə və hərbi əməliyyatlar keçirilən rayonlara ezam olunublar. 44 günlük Vətən müharibəsi dövründə döyüş zonasında rabitə əlaqəsi yüksək səviyyədə təmin olunub və heç bir rabitə kəsilməsinə yol verilməyib.

Həmçinin, Daxili Qoşunların Baş İdarəsində baş idarəetmə məntəqəsi açılıb, döyüş bölgəsindən olan informasiyalar, eləcə də hərbi vəziyyətlə bağlı xidmətaparma yerlərində baş vermiş hadisələr haqqında məlumatlar toplanaraq komandanlığa təqdim edilib. İdarəetmə məntəqəsində fəaliyyət göstərən hərbi qulluqçular xidmətlərində sayıqlıq göstərərək verilən tapşırıqları layiqincə yerinə yetiriblər. Gizirlər Əlibaba İskəndərov, Zamin Əbdülhəsənov, Bəhri Məlikov, Əfqan Qurbanov və baş çavuşlar İlkin Məmmədov, Eldəniz Nurməmmədzadə fərqlənən hərbi qulluqçulardır.

“Rabitə bölməsində yeni xidmətə başlayan hərbi qulluqçulara tövsiyəm odur ki, rabitənin orduda əhəmiyyətini dərindən başa düşüb, peşəkarlıqlarını daim artırsınlar, vəzifə borclarını məsuliyyət hissi ilə yerinə yetirsinlər. Biz zabitlər də öz növbəmizdə, çalışırıq ki, təcrübədə qazandığımız bilik və bacarıqlarımızı şəxsi heyətə çatdıraq. Uzun illərdir ki, bizim rabitəçilərin ən böyük arzusu düşmən tapdağında olan torpaqlarımızın azad edilməsində bilik və bacarıqlarını nümayiş etdirmək olub. Bu gün arzumuz ölkə rəhbəri, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında aparılan uğurlu döyüş əməliyyatları sayəsində artıq reallaşdı. Qələbə xəbərini Azərbaycan xalqına çatdıran hər bir rabitəçi öz müqəddəs missiyasını yerinə yetirib və bundan sonra da yerinə yetirməkdə davam edəcək”.

**baş leytenant Nigar Ağayeva**

# QADIN HƏRBİ QULLUQÇULARIMIZ VƏZİFƏ BORCLARINI ŞƏRƏFLƏ YERİNƏ YETİRİRLƏR








67987 saylı hərbi hissədə xidmət edən qadın hərbi qulluqçular nizam-intizamı və əzmkarlığı ilə seçilirlər. Xüsusi vasitələrin tətbiqi bölməsinin qadın hərbi qulluqçularının təlimlərdə göstərdikləri nəticələr heç də kişi hərbi qulluqçulardan geri qalmır, bu baxımdan üzərilərinə düşən tapşırıqların öhdəsindən layiqincə gəlirlər.

Ölkəmiz bir çox idman yarışına, musiqi festivallarına və mədəni-kütləvi tədbirlərə evsahibliyi edir. Yaşayış məntəqələrində, kütləvi tədbirlərin keçirildiyi ərazilərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinə qadın hərbi qulluqçular da cəlb olunurlar.

Xüsusi vasitələrin tətbiqi dəstəsinin komandiri polkovnik-leytenant Vüqar Şirinov bildirdi ki, qrup öz işinin öhdəsindən layiqincə gəlir.

Plana uyğun olaraq, qadın hərbi qulluqçularımız təlim-məşq toplantılarına cəlb edilir, sinif şəraitində hərbi-nəzəri dərslərdə, poliqonlarda isə praktiki məşğələlərdə biliklərini artırır, təlim-atış çalışmalarını yerinə yetirirlər. Göründüyü kimi, qadın hər nə qədər zərif cinsin nümayəndəsi olsa da, mətanəti və iradəsi ilə ciddi intizam tələb edən hərbi peşənin öhdəsindən layiqincə gəlir.

Komandir heyətinin təlim zamanı intizamlı və fəal olmasını, davranış və hərəkətləri ilə tabeliyində olanlara nümunə göstərməsini tələb edən bölmə komandiri baş leytenant Rahil Sərxanov götürmə qrupunun qadın hərbi qulluqçularının uğurlarını xüsusilə vurğuladı: “Hər bir komandir idarəetmə qabiliyyətli və metodiki cəhətdən hazırlıqlı olmalıdır. Yarımqrup komandirləri gizir Günel Məmmədova və gizir Günay Ömərovanı bu baxımdan bacarıqlı və savadlı hərbçilər kimi xarakterizə etmək olar. Yüksək nizam-intizama, peşəkarlıq, dözümlülük kimi keyfiyyətlərə malik olan və bununla da şəxsi nümunə olmağı bacaran komandirlər, eyni zamanda, keçirilən təlim-məşğələlər zamanı da fəallıqları ilə seçilirlər. Qeyd edim ki, gizir G.Məmmədova cüdo idman növü üzrə idman ustası, gizir G.Ömərova isə karate idman növü üzrə “Birinci dan qara kəmər” sahibidir”.

Qadın hərbi qulluqçularımız 2019-cu ilin ümumi inspeksiya yoxlamasının nəticələrinə görə yüksək göstəricilərə nail olublar.

Təlim və məşğələlərdə fəallıqları ilə seçilən hərbi qulluqçulardan kiçik gizir Arzu Mahmudovanın, çavuş Aynur Heydərovanın, əsgərlərdən Gilə Mirzəməmmədovanın və Mədinə Heydərovanın adlarını qeyd edə bilərik.

Hərbi xidmətdə daim əzmkarlıq və nümunə göstərməyi bacaran qadın hərbi qulluqçuların bundan sonra da üzərilərinə düşən vəzifələri uğurla icra edəcəklərinə, qarşıya qoyulan tapşırıqları bacarıqla yerinə yetirəcəklərinə inanırıq.

**kapitan Sadıq Rəfiyev**

# ZABİTİN PEŞƏKARLIĞI XİDMƏTİN TƏŞKİLİNDƏ VACİB ŞƏRTDİR




Hərbi qulluqçu dedikdə, Vətəninə, torpağına bağlılığı ilə seçilən, onun yolunda hər an canından keçməyə hazır olan insan gəlir göz önünə. Sözsüz ki, hər bir insanda elə, obaya bağlılıq, Vətənə sevgi bu və ya digər şəkildə formalaşır. Lakin həyatını hərbi xidmətə bağlayan, ölkəsinin ərazi bütövlüyünü təmin etmək üçün əldə silah müsəlləh əsgər kimi ayıq-sayıq xidmət aparan hərbi qulluqçularımız Vətənin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyırlar.

Daxili Qoşunların 25032 saylı hərbi hissəsinin komendant bölüyündə xidmət edən baş leytenant Ruslan Sevdiməliyev də bu fikirləri dərindən dərk edir, xidməti-vəzifə borcunu hərbi nizamnamələrin tələblərinə uyğun həyata keçirir.

O, 1987-ci il noyabrın 28-də Hacıqabul rayonunda dünyaya göz açıb. Orta təhsilini Hacıqabul rayonundakı Vidadi Quliyev adına 6 saylı tam orta məktəbdə alıb. 15-16 yaşlarında idmanın cüdo növü ilə peşəkar səviyyədə məşğul olub. Özünün dediyinə görə, hərbi xidmətdə olmasına təkan verən amillərdən biri də idmançı olmasıdır. 2005-ci ildə orta təhsilini tamamlayan Ruslan 2006-cı ildə Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib.

2010-cu ildən Daxili Qoşunların 25033 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirir. 2012-ci ildə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbinə (hazırda Daxili Qoşunların Ali Hərbi Məktəbi) qəbul edilib. 2014-cü ildə “leytenant” hərbi rütbəsi alaraq 17071 saylı hərbi hissədə taqım komandiri vəzifəsinə təyin olunub. Hazırda 25032 saylı hərbi hissənin komendant bölüyü komandirinin döyüş təlimi üzrə müavinidir.

Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan baş leytenant R.Sevdiməliyev üzərinə düşən vəzifələrin icrasına məsuliyyətlə yanaşır. Bölükdə nizam-intizamın, daxili qayda-qanunun yaradılmasında əməyi var.

Onunla söhbət zamanı qeyd etdi ki, xidmət Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələbləri əsasında aparılır, həvalə olunmuş hərbi obyektlərin etibarlı mühafizəsinin təşkili üçün hər bir hərbi qulluqçu tələblərə ciddi əməl edir. Şəxsi heyətin bilik və bacarığının, eyni zamanda, hərbi savadının qənaətbəxş, mənəvi-psixoloji durumunun isə yüksək səviyyədə olmasına diqqət yetirilir. Hərbi qulluqçulara öz vəzifələrinin icrasına cəlb edilməzdən öncə yerinə yetirdikləri döyüş xidmətinin əhəmiyyəti izah edilir, müvafiq təlimatlandırma aparılır.

Harda olmasından asılı olmayaraq, Vətənə, dövlətə xidmətin şərəfli olduğunu deyən baş leytenant R.Sevdiməliyev hər bir zabitin özlüyündə şəxsi heyətə nümunə olmasının vacibliyini vurğulayaraq, bundan sonra da qarşıya qoyulan tapşırıqların icrasında əzmkarlıq göstərəcəyinə söz verdi.

**baş leytenant**
**Nigar Ağayeva**

# YARADILMIŞ ŞƏRAİT VƏ ƏN YENİ TEXNOLOJİ VASİTƏLƏR HƏKİMLƏRİN PEŞƏKARLIĞINI ARTIRIR

**“Əsgər” qəzetinin ötən sayında Daxili Qoşunların hərbi qospitalının peşəkar tibb personalı ilə hərbi qulluqçuların sağlamlığının keşiyində mətin dayanan psixonevrologiya şöbəsi barədə məlumat vermişdik. Bu buraxılışımızda isə zəngin təcrübəsi, fədakar xidməti ilə seçilən Cərrahiyyə şöbəsinin şəxsi heyətini və iş prinsiplərini sizə təqdim edirik.**



Cərrahiyyə şöbəsinin rəisi tibb xidməti polkovnik-leytenantı Nəzakət Səmədovadır. Baş ordinator - oftalmoloq tibb xidməti mayoru Arzu Qurbanova, ordinator-oftalmoloq tibb xidməti baş leytenantı Svetlana Bəşirova, ümumi cərrah tibb xidməti leytenantı Elnur Əliyev, mülki həkim-cərrah Azad Azadov, üz-çənə cərrahı Şahin Əliyev, ümumi cərrah Sübəddin Quliyev şöbənin bacarıqlı mütəxəssislərindəndirlər. Tibb bacıları kiçik gizir Gülüstan Məmmədova, baş çavuşlar Aydan Məmmədli, Turanə Əliyeva, Nuranə Əliyeva, çavuş Aysel Hüseynova və kiçik çavuş Təranə İsmayılova, tibb qardaşları gizir İntiqam Məmmədov və kiçik gizir Novruz Yusifli də vəzifələrinin öhdəsindən layiqincə gəlirlər.

Şöbənin rəisi vəzifələrini müvəqqəti icra edən tibb xidməti mayoru Arzu Qurbanova bildirdi ki, şöbə işini “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında” təlimatın və Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Hərbi-həkim ekspertizası haqqında Əsasnamə”nin tələblərinə əsasən təşkil edir: “Hər səhər şöbədə iclas keçirilir və xəstələrin ümumi vəziyyətləri müzakirə olunur. Daha sonra aidiyyəti üzrə tapşırıq və təlimatlar verilir. Ümumiyyətlə, Cərrahiyyə şöbəsində fəaliyyət çoxprofillidir. Burada üst çənə cərrahı, oftalmoloq, travmatoloq və digər ixtisaslı həkimlər şöbəyə müraciət edən xəstələrin sağlamlığına qovuşması üçün əllərindən gələni əsirgəmirlər. Şöbənin şəxsi heyəti səylə çalışır, üzərinə düşən vəzifələri keyfiyyətlə yerinə yetirir”.

Mayor A.Qurbanova onu da vurğuladı ki, şöbəyə müraciət edən xəstələr üç gün ərzində müayinələrdən keçərək, əməliyyata hazırlanırlar. Əməliyyatdan sonra xəstənin durumuna, qidalanmasına ciddi nəzarət edilir. Bununla yanaşı, vaxtaşırı ilkin yardım üçün müraciətlər olur. Travmalardan sonra xəstələrə travmatoloji yardım da göstərilir. Kəskin cərrahi xəstəliklərdə isə təcili cərrahi əməliyyat olunur: “Gündəlik olaraq, bir neçə dəfə şöbədəki xəstələrin vəziyyətinə baxış keçirilir, müvafiq müalicəvi təyinatlar verilməsinə nəzarət olunur. Xəstələrin vəziyyəti, müalicəsini başa çatdırdıqdan sonra şöbədən çıxarılan və şöbəyə yeni qəbul olunan xəstələr barədə mütəmadi olaraq şöbə rəisinə məruzə olunur. Həmçinin, palatalarda rejim və sanitar-gigiyena qaydalarına əməl olunması şöbə rəisi tərəfindən nəzarətdə saxlanılır”.

Öz profillərinə uyğun olaraq fəaliyyət göstərən həkim hərbi qulluqçularımız daim peşəkarlıqlarının artırılması üçün səy göstərirlər. Yaradılmış hərtərəfli şərait və şöbənin ən yeni texnoloji avadanlıqlarla təmin olunması da buna geniş imkan yaradır.

Mayor A.Qurbanova sonda hərbi qospitalda yaradılan hərtərəfli şəraitə görə Daxili Qoşunların komandanlığına dərin minnətdarlığını ifadə edərək, qoşunların sıralarında xidmət etməkdən qürur duyduğunu söylədi.

**baş leytenant**
**Xədicə Hacızadə**

4_Layout 1 27.11.2020 10:33 Page 1



# TARİX BOYU ERMƏNİLƏRİN TÖRƏTDİYİ VANDALİZM BU GÜN DƏ DAVAM EDİR...

Sentyabrın 27-dən başlayaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuzun işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad etmək, Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq və mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə apardığı döyüş əməliyyatları müasir tariximizə qızıl hərflərlə yazıldı.



44 gün davam edən Vətən müharibəsi nəticəsində illərlə işğal altında qalan, həsrətini çəkdiyimiz Vətən torpaqları - Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərləri, Laçın, Xocalı rayonlarının bir sıra kəndləri, Hadrut qəsəbəsi və digər yüzlərlə əhəmiyyətli yüksəklik, kənd və qəsəbəmiz işğaldan azad olundu. Ötən günlər ərzində olduqca qürurverici anlar yaşadıq. Nəhayət ki, 30 ilə yaxın erməni qəsbkarları tərəfindən işğal olunan doğma yurdlarımıza qovuşduq. Həmin şəhərlərə, kəndlərə qayıdacağımız günü hər kəs səbirsizliklə gözləyir.

Döyüş meydanında canlı qüvvə və texnika sarıdan böyük itkilərə məruz qalan mənfur düşmənin öz məğlubiyyətinin əvəzini döyüş bölgəsindən kilometrlərlə uzaqda olan Gəncə və Bərdə şəhərlərindən çıxması, Tərtər, Ağdam, Ağcabədi, Goranboy rayonlarının günlərlə atəş altında saxlanılması, bu ərazilərdəki mülki əhalinin qətlə yetirilməsi hər birimizi kədərləndirməklə yanaşı, həm də hiddətləndirdi, düşmənə olan nifrətimizi daha da artırdı.

Ermənistanın bu vandal hərəkətləri bir daha onun bir dövlət kimi faşist mahiyyətini ortaya qoydu. Növbəti dəfə beynəlxalq humanitar hüququn, bu hüququn əsas sənədləri olan Cenevrə və digər beynəlxalq konvensiyaların tələbləri kobud şəkildə pozuldu, hərbi cinayətlər törədildi. Ermənistan təkcə beynəlxalq qanunları deyil, həm də bütün yazılmış və yazılmamış qaydaları,



dəyərləri tapdaladı. Terror üzərində qurulmuş, qondarma tarixi belə yalnız terrordan ibarət olan bir dövlətin məğlubiyyətdən xilas olmaq ümidi ilə mülki əhaliyə qarşı terrora əl atması, əslində, heç də təəccüblü deyildi. Bununla, ordumuzun işğal altındakı ərazilərdə irəliləməsinin qarşısını ala bilmədikləri üçün diqqəti yayındırmağa, mülki əhali arasında təşviş yaratmağa, Qarabağdakı məğlubiyyətini, bir növ, kompensasiya etməyə çalışan terrorçu dövlətin cəhdləri baş tutmadı. 30 il həsrətində olduğumuz qələbəni heç kim və heç nə əlimizdən ala bilmədi. Silahlı Qüvvələrimizin hərbi sahədəki uğurlarını ölkə rəhbərliyi məharətlə siyasi-diplomatik müstəviyə keçirməyə nail



oldu.

Noyabrın 10-u Azərbaycan, Rusiya və Ermənistanın rəhbərləri tərəfindən imzalanmış bəyanata əsasən, Ermənistan Azərbaycanın işğal altında olan Ağdam, Kəlbəcər və Laçın rayonlarından erməni qüvvələrinin çıxarılmasını öz öhdəsinə götürdü. Artıq noyabr ayının 20-də Ağdam, noyabrın 25-də isə Kəlbəcər rayonu erməni işğalçılarından tamamilə azad olundu. Digər torpaqlarımızdan da ermənilərin təmizlənməsi davam etdirilir.

Əraziləri və məskunlaşdıqları məkanları tərk etməzdən əvvəl indiyə qədər bütün dünyaya "az qala beş min il sivilizasiya tarixi olan və ən qədim mədəni xalq" kimi təqdim edilən vəhşi ermənilər bu dəfə də murdar xislətlərinə sadiq qalaraq, Kəlbəcər ərazisində yaşadıqları və bəhrələndikləri torpaqları viran qoydular, məskunlaşdıqları və uzun müddət istifadə etdikləri azərbaycanlılara məxsus evləri söküb dağıtdılar, od vurdular. Qədim yurdları, yaşayış məskənlərini yer üzündən silərək, kölgəsində barındıqları ağacları kəsib doğradılar, meşə-



ləri odladılar, hərəkət etdikləri yolları və körpüləri dağıtdılar. Bir sözlə, vura bildikləri qədər ziyan vurub, hətta ölülərinin qalıqlarını belə torbalara dolduraraq özləri ilə apardılar.

Beynəlxalq media qurumları tərəfindən yayılan foto və videolarda da bu cinayətlər öz əksini tapır. Dünyanın müxtəlif tanınmış kütləvi informasiya vasitələrində erməni vandalizmi barədə süjetlər hazırlanıb.

Çin Mərkəzi Televiziyasının ingilis dilində yayımlanan CGTN (China Global Television Network) kanalının internet səhifəsində ermənilərin Kəlbəcəri tərk edərkən törətdikləri vəhşiliklər barədə məqalə yerləşdirilib. Məqalədə ermənilərin Kəlbəcərdə törətdikləri vandalizmlə yanaşı, Azərbaycanın Baş Prokurorluğuna istinadla qeyd olunub ki, Füzuli rayonunda mina partlaması nəticəsində bir nəfər ölüb, digəri isə ağır dərəcəli bədən xəsarəti alıb.

BBC-nin reportajında isə görünür ki, ermənilər aparılması mümkün olan hər şeyi özləri ilə götürür, hətta pəncərə çərçivələrini belə aparırlar. İşğal olunmuş ərazilərdə maddi-mədəni sərvətlərimizin dağıdılması və qarət olunması indi də davam edir. Ermənilər apara bilmədikləri hər şeyi yandırıb, məhv ediblər. BBC-nin reportajında evi yandıran erməni belə deyir: "Mən yaşamıramsa, heç kim yaşamasın". Bu vandalizm ermənilərin mahiyyətini aşkar şəkildə göstərir.

Rusiyanın RBK agentliyinin Kəlbəcərdəki müxbiri Aleksandr Atasuntsev yazır ki, ermənilər gedərkən evləri və meşələri qəsdən yandırdılar, hətta məktəb binasına da od vurdular.

Tarixə nəzər salsaq, 1993-cü ilin aprel ayını xatırlasaq, bunların tam əksini görərik. Azərbaycanlı əhalinin oradan zorakılıqla qovulması, dağ yolları ilə, ayaqyalın, piyada şəkildə erməni təcavüzkarlarından qaçıb xilas olması, onların bir çoxunun qırğına məruz qalması, hətta meyitlərin belə təhqir olunması tarixin danılmaz faktlarıdır. İşğal nəticəsində Kəlbəcərdə 500-dən artıq dinc sakin həlak oldu, yüzlərlə insan girov götürüldü və ya itkin düşdü. Onlar özləri ilə heç nə götürə bilmədilər, sakinlərin bütün əmlakı erməni ordusu tərəfindən qarət olundu. Ermənilər isə torpaqlarımızı tərk edərkən bütün əşyalarını, hətta mal-qara-




sını belə maşınlara yığıb apara bildilər. Əslində, bütün bunlar iki ölkə, iki xalq arasındakı fərqdir.

Ermənilərin bütün vəhşiliklərinə, vandallığa rəğmən, Azərbaycan humanizm göstərdi, çünki eyni cür davranmaq nə bizim dövlətin, nə də xalqın mahiyyətində var. Beynəlxalq medianın yaydığı görüntülərdən ermənilərin təhlükəsiz şəkildə, atəşə məruz qalmadan rahatlıqla Kəlbəcərdən çıxmaları aydın şəkildə görünür. Hətta bunun üçün onlara on gün əlavə vaxtın verilməsi də bir daha dövlətimizin humanizminin sübutudur.

Prezident İlham Əliyev də dəfələrlə öz çıxışlarında, verdiyi müsahibələrdə ermənilərin torpaqlarımızı xarabalığa çevirdiklərini bəyan edib. Oktyabrın 28-də "Interfax"a söylədiyi fikirlərdə də bu öz əksini tapıb: "Biz Füzuli şəhərini işğaldan azad edəndə orada bircə salamat bina tapa bilmədik. Təsəvvür edirsinizmi? Bütün şəhərdə, halbuki orada 10 minlərlə insan yaşayırdı. Bircə bina da qalmayıb. Mənə zəng vurdular, dedim ki, bayrağı dirək üzərində qaldırın. Görün, onlar nə ediblər. Ağdamın, Cəbrayıl rayonunun xarabalıqlarına baxın. Hər şey dağıdılıb. Elə bil buradan vəhşilər keçiblər. Elə bil bunlar insan deyilmiş. Onlar hər şeyi söküb-dağıdıblar. Bu, sadəcə, quldurluqdur".

Bəli, bu quldurluqdur, terrordur, mədəni abidələrimizə, xalqımıza, dinc əhalimizə, torpaqlarımıza qarşı illərlə, əsrlərlə davam edən terrordur. Lakin heç bir vəhşilik, heç bir terror Azərbaycan xalqının əzmini, qələbə sevincini yarımçıq qoya bilmədi. Müzəffər Azərbaycan ordusu öz tarixi missiyasını şərəflə yerinə yetirdi, torpaqlarımızı azad edərək, Qarabağın şəhər və kəndlərinə üçrəngli Azərbaycan bayrağını sancdı.

**baş leytenant Xədicə Hacızadə**

# GÖSTƏRİLƏN ETİMAD VƏZİFƏ MƏSULİYYƏTİNİ DAHA DA ARTIRIR

67987 saylı hərbi hissədə ərzaq anbarının rəisi baş çavuş Amid Həsənov Daxili Qoşunların sıralarında uzun illərdir layiqincə xidmət edir. Hərbi hissə komandanlığı tərəfindən onun fəaliyyəti müsbət xarakterizə olunur.

Baş çavuş A.Həsənov 1984-cü il noyabrın 4-də Neftçala rayonunun Qaçaqkənd kəndində anadan olub. Şəhid Nəriman Bəşirov adına kənd orta məktəbini bitirib.

O, 2003-cü ilin yanvar ayından 2004-cü ilin iyul ayına qədər Daxili Qoşunların 99713 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub. Amidin Vətən sevgisi onu yenidən ordu sıralarına qaytarıb. 2007-ci ilin avqust ayından Daxili Qoşunların 99713 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət etməyə başlayan baş çavuş A.Həsənov ilk olaraq aşpaz-təlimatçı vəzifəsinə təyin olunub. 2014-cü ilin aprel ayında ona "baş çavuş" hərbi rütbəsi verilməklə yeməkxana rəisi vəzifəsinə təyin edilib. 2016-cı ildən 67987 saylı hərbi hissədə yeməkxana rəisi vəzifəsində xidmətini davam etdirən baş çavuş A.Həsənov funksional vəzifələrini məsuliyyətlə yerinə yetirməsi, icraçılığı, çalışdığı sahənin xüsusiyyətlərinə mükəmməl yiyələnməsi nəzərə alınaraq, 2018-ci ilin iyun ayında ərzaq anbarının rəisi vəzifəsinə irəli çəkilir.

Anbarlarda saxlanılan ərzaq məhsullarının, əşya əmlaklarının nomenklaturasını bilmək, onların komplektliyinə, mövcudluğuna, o cümlədən, keyfiyyətinə nəzarət etmək anbar rəisinin funksional vəzifələrinə daxildir. Günün sonunda anbarda olan əmlakların hesabatı dəqiq aparı-




lır, mədaxil-məxaric sənədləri məsul icraçıya təqdim edilir. Bundan başqa, ayda bir dəfədən az olmayaraq, məsul icraçı ilə tutuşdurma aparılır.

Ərzaq anbarının rəisi kimi öz sahəsi üzrə funksional vəzifələrinin icrasına vicdanla yanaşır. Dəfələrlə hərbi hissədə aparılan müxtəlif yoxlamalar zamanı ərzaq anbarının işi nümunə göstərilib.

Baş çavuş A.Həsənov bu günədək hərbi xidməti müddətində komandanlıq tərəfindən dəfələrlə mükafatlandırılıb. "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medal, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 20 illiyi" yubiley döş nişanı ilə təltif olunub.

Daxili Qoşunların sıralarında Vətənə xidmət etməkdən qürur duyduğunu bildirən hərbi qulluqçumuz bundan sonra da şərəflə xidmətini davam etdirəcəyini deyir.

**kapitan Sadıq Rəfiyev**

*Həkim məsləhəti*

# ZEYTUN YAĞI UZUNÖMÜRLÜLÜK NEMƏTİDİR

Alimlər tədqiqat apararaq zeytun yağının uzunömürlülük üçün ən yaxşı təbii vasitələrdən biri olduğunu müəyyən ediblər. Bu yağdan istifadə immun sistemini möhkəmləndirərək onu mikroorqanizmlər, bakteriyalar və ya viruslar tərəfindən edilən daxili hücumlardan qoruyur.

"Science Direct" jurnalında dərc olunan tədqiqatın nəticələrinə görə, zeytun yağı xərçəngin əmələ gəlməsi riskini azaldan, ürəyin sağlamlığını dəstəkləyən, uzunömürlülüyü artıran ərzaqdır.

**AZƏRTAC** "MedikForum"a istinadla xəbər verir ki, tədqiqatın müəllifləri Aralıq dənizi pəhrizi çərçivəsində istifadə edilən bu yağın sağlamlığa və üzünömürlülüyə meyilliyini öyrəniblər.

Tədqiqatın aparıcı müəllifi Duq Maşek deyib: "Bir çox tədqiqat göstərib ki, Aralıq dənizi pəhrizi sağlamlığa xeyli fayda gətirə bilər. Uzunömürlülüyün artırılması da buraya aid edilir. Pəhrizin əsas inqrediyenti zeytun yağıdır. Məhz bu təsirin başlıca izahı da zeytun yağı ola bilər.

Alimin sözlərinə görə, güclü yaxşılaşma effekti zeytun yağının tərkibində olan maddələrin növü ilə izah edilir. Onun əsasını monodoymamış yağ turşuları, ilk növbədə, olein turşusu təşkil edir. Onlar kifayət qədər axıcılıq xassəsinə malikdirlər, lakin saxlananda və yemək bişirilərkən istifadədə az turşulaşırlar, günəbaxan yağının turşularını buna misal göstərmək olar. Uzunömürlü heyvanlar üzərində aparılan sınaqlar göstərib ki, onların hüceyrələrindəki membranlarda məhz monodoymamış yağ turşuları üstünlük təşkil edir və onların sayəsində qocalma



prosesində orqanlar daha az zərər çəkir.

"Birinci sıxma zeytun yağı uzunömürlülüyü artırmağa qadir olan bütöv maddələr toplusuna malikdir, olein turşusu ilə yanaşı, bunlar beta-sitosterol, E və K1 vitaminləri, hidroksitirozol, oleokantal, eritrodioldur. Siçovullar üzərində sınaq aparıldığı zaman onlara zeytun yağı verilərkən bu gəmiricilər daha çox yaşayıblar", - deyə mütəxəssislər bu barədə fikirlərini bölüşüblər.

Mütəxəssislər hər gün iki xörək qaşığı keyfiyyətli birinci soyuq sıxma zeytun yağından qəbul etməyi məsləhət görürlər. Onlar təsdiqləyirlər ki, belə praktika arteriyaların elastikliyini artırır, damarlardakı yüklülüyü azaltmaqla ürək-damar xəstəlikləri riskini aşağı salır, həmçinin, xərçəng hüceyrələrinin inkişafının qarşısını alır.

Həkimlər bildirirlər ki, zeytun yağının tərkibində olan oleokantal və fitonutriyent iltihabı azaldan ibuprofen effekti yaradır. Bu da xərçəng və onun yenidən əmələ gəlməsi riskini azaldır. Həmçinin, bu yağın trombun əmələ gəlməsinin və trombositlərin bir-biri ilə birləşməsinin qarşısını alması aşkar edilib.

# HƏRBİ XƏBƏRLƏR

-YENİLİKLƏR-

## "Kongsberg" 20 000-ci "Protector"u sifarişçiyə təhvil verib

"Azeri Defence"in bildirdiyinə görə, bu barədə Norveçin "Kongsberg" şirkətinin yaydığı məlumatda bildirilib.

1999-cu ildən etibarən Norveç Silahlı Qüvvələri tərəfindən istifadə olunan "Protector" döyüş modulu 5.56 mm-lik tüfənglərdən 30 mm-lik toplara, tank əleyhinə və hava hücumundan müdafiə raketləri və müxtəlif sensor paketləri ilə inteqrasiya olunur.

Bu günədək "Protector" döyüş modulu Norveç, ABŞ, İngiltərə, Fransa, Almaniya, Kanada, Avstraliya, Hollandiya və İsveçrə də daxil olmaqla, 23 ölkəyə satılıb.



21 il ərzində təkcə ABŞ-a 17000-dən çox "Protector" döyüş modulu satılıb. Döyüş modulu ABŞ ordusunun M1V3 "Abrams" tanklarının qülləsində quraşdırılıb.

# Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası **e.o. polkovnik Zakir Süleymanovun** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

67987 saylı hərbi hissənin şəxsi heyəti mayor Azər Mustafayevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17071 saylı hərbi hissənin şəxsi heyəti baş gizir Sahib Məmmədova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nümunəvi göstərici hərbi orkestrin şəxsi heyəti baş çavuş Şahin Bağırova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

67987 saylı hərbi hissənin şəxsi heyəti çavuş Vüsal Qurbanova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q.Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000